

# Kommunikasiya vasitələri

12/2 2016

Verilənləri bir kompüterdən başqasına ötürmək üçün həmin verilənləri daşıyan müəyyən növ aralıq bağlayıcıya ehtiyac var. Bu bağlayıcı ***kommunikasiya kanalı [communications channel],*** yaxud ***rabitə kanalı*** kimi tanınır. Belə kanal olaraq bütün dünyada geniş yayılmış **telefon şəbəkəsi** çox önəmli rol oynayır.

Telefon sistemi dünyadakı bütün telefon şəbəkələrinin – yerli (local), uzaq-məsafəli (long-distance), mobil (cellular) və peyk rabitəsi (satellite) şəbəkələrinin toplusudur.

# Fiziki vasitələr

***Sarınmış cütlük kabeli*** ***[twisted-pair cable]:*** Telefon sistemlərinin əksəriyyətində istifadə olunan bu kabel çox ucuzdur. Bu kabel bir-birinə sarınmış iki ayrıca izolyasiya olunmuş naqildən ibarətdir



***Koaksial kabel* [coaxial cable]:** Əsasən televiziya sənayesində istifadə olunan bu növ kabellər kompüter şəbəkələrində də geniş yayılıb. Koaksial kabel iki naqildən: silindrik formalı ekranlanmış (pərdələnmiş), torpaqlanmış naqildən və onun içərisində olan mərkəzi teldən ibarət olur.





- ***Fiber-optik kabel*** ***[fiber-optic cable]:*** Fiber-optik kabel nazik, elastik şüşə borucuqlardan hazırlanır.
- daha çox verilənləri daşıya bilir.
- Fiber-optik kabellərin əsas çatışmazlığı onların kövrək və baha olmasıdır.





# Simsiz vasitələr

- ***Radio siqnalları [radio signals]:*** Radio siqnalları vasitəsi ilə ötürülmə zamanı görünüş xəttinin olması vacibdir






*

- ***Mikrodalğalar [microwaves]:*** Mikrodalğalı siqnallar fəzada elektromaqnit dalğaları formasında göndərilir. Radio siqnalları kimi, onlar da bir mikrodalğa stansiyasından başqasına düz xətt üzrə göndərilməlidir.



***Peyk rabitəsi vasitələri [satellite transmissions]:*** Rabitə peykləri orbitdə Yer səthindən 35786 km yüksəklikdə yerləşir. Belə yüksəklik peykə imkan verir ki, Yerlə eyni sürətlə fırlanmaqla Yer səthindəki bir nöqtə üzərində sabit mövqe saxlaya bilsin. Peykdə yerləşdirilmiş avadanlıqlar Yerdən göndərilən siqnalları gücləndirir və onları geriyə Yerə qayta

